# Memarlıq - xalqımızın qədim və möhtəşəm sənəti

Oktyabr ayının 7-si, yəni qəbul olunmuş qaydaya görə ilin oktyabr ayının birinci bazar ertəsi günü - Beynəlxalq Memarlıq Günü bütün dünya memarlıq ictimaiyyəti tərəfindən xüsusi qeyd olunur. Çoxillik təcrübə göstərir ki, bu tarix memarlıq sənətinə aidiyyəti olmayan insanların da diqqətindən kənar qalmır.

Bu peşə bayramı Azərbaycanda da qeyd edilir. Ümumiyyətlə, çox önəmlidir ki, memarlıq sənəti xalqımızın ən qədim və möhtəşəm sənət növlərindən biridir. Yaşadığımız dövrə gəlib çatmış erkən orta əsrlərdə yaradılmış tarixi memarlıq abidələri bunun sübutudur.

Qədim Naxçıvan torpağında XII-XIV əsrlərdə böyük ustadlar tərəfindən yaradılmış onlarla təkrarolunmaz memarlıq əsərləri bu gün də göz oxşayır və fərəh hissi doğurur. Qədim paytaxtımız Bakının döyünən ürəyi olan, bir çoxlarımızın mənəviyyatına şərəf verən İçərişəhərdəki Məhəmməd məscidi, XII əsrdə inşa olunmuş, xalq arasında Sınıq Qala adlanan minarə, inşaası eramızın əvvəlinə şamil edilən möhtəşəm Qız Qalası və başqaları Azərbaycan xalqının minillərlə burada yaşadığını və yüksək mədəniyyətə malik olduğunu göstərir.

Son onilliklər ərzində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Mədəniyyət Nazirliyi, Milli Elmlər Akademiyası tarixi memarlığımızın tədqiqatı sahəsində böyük işlər görmüşlər. Onlarla abidə bərpa olunmuş, ölkənin bir sıra bölgələrində arxeoloji qazıntılar aparılmış və nəticə olaraq tarixi Misir piramidalarından qədim olan bir neçə şəhər tapılmışdır. Bu şəhərlərin 3-5 min il öncə salınması xalqımızın qədim və yüksək mədəniyyəti haqda xəbər verir. Adətən həyatlarını at belində yaşayan başqa türkdilli qardaş millətlərdən fərqli olaraq, biz bu torpağın əzəldən sahibi olub, burada şəhərlər salmışıq. Bu şəhərlərdə sənət növləri, mədəniyyət, elm, ticarət inkişaf edib və İpək Yolundan keçib gedən hər hansı bir xalqın nümayəndələrinə mədəniyyətimizin, adətlərimizin, hətta kulinariyamızın töhfələrini bağışlayıb.

Azərbaycanın qədim memarlıq məktəbləri olan Təbriz, Naxçıvan, Şirvan məktəblərinin ustad memarları Uzaq Şərqdən Kordovaya qədər, Volqa (İdil) çayı sahillərindən Hindistana kimi ərazilərdə yaradıcılıq nümunələri inşa etmişlər.

Bu yaxınlarda Beynəlxalq Memarlar İttifaqının Ali Şurasının üzvü olaraq Hindistanda keçirilən müşavirədə iştirak etdim. Dəfələrlə gördüyüm Tac Mahalı həmkarlarım ilə birgə ziyarət etdim. Bu möhtəşəm məqbərənin türk olan Şah Cahan Humayun tərəfindən inşa edildiyini bilirdim. Hətta onun inşası üçün Təbrizdən bura dəvət olunmuş ustad memar Ağa Mirək Mirzə Qiyasın adını da bilirəm. Lakin hər dəfə bura gələndə hindistanlı həmkarlarımla bu barədə apardığım söhbət onlar tərəfindən mənfi qəbul edilirdi. Buna görə özümə söz verdim ki, bu dəfə danışmayacağam. Tale elə gətirdi ki, məcbur oldum.

Bizə izahat verən mütəxəssis söylədi ki, məqbərənin fasad və interyerində işlənən bəzək daşları Hindistana memar tərəfindən İrandan gətirilib. Atalar demişkən, tutdum dilindən. Soruşdum, axı Hindistan bəzək daşları ilə dünyada məşhur tanınmış bir ölkə olan yerdə, bu memar nədən bəzək daşlarını burada yox, İranda axtarıb? Dostumuz özünü itirdi. Onda mən ona izah etdim ki, Şah Cahan Humayun türk olduğundan, Tac Mahalı Təbriz memarlığı üslubunda tikdirmək arzusu ilə buraya Təbriz memarını gətizdirib. O isə öz növbəsində tanıdığı bəzək materiallarından istifadə edib.

Beləliklə, kiçik bir epizod Azərbaycan tarixi mədəniyyətinin yalnız bircə istiqaməti olan milli memarlıq məktəbimizin qədim dövrlərdən bəri məşhurluğundan xəbər verir.

Azərbaycanda memarlığın inkişafına XX əsrdə də böyük diqqət yetirilmişdir. XX əsrin əvvəllərində, burada sosialist hakimiyyəti qurulandan, Bakıda o dövr üçün avanqard hesab olunan konstruktivizm üslubunda bir çox böyük



yaşayış massivləri, ictimai binalar inşa olunur. İkinci Cahan müharibəsindən sonra Azərbaycanda milli romantizm üslubunda böyük ustadlar Sadıx Dadaşov, Mikayıl Hüseynov, Həsənağa Məcidov, Ənvər Qasımzadə və başqaları tərəfindən onlarla unudulmaz memarlıq əsərləri yaradılmışdır.

Azərbaycan memarlıq sənətinin Sovet hakimiyyətinə aid dövrünün ən parlaq vaxtı ötən əsrin 70-ci illərini əhatə edir. O vaxt Azərbaycana rəhbərlik edən Heydər Əliyev memarlıq sənətinə böyük diqqət və qayğı göstərmişdir. Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda və başqa şəhər və qəsəbələrimizdə inşa olunan hər bir binanın və kompleksin memarlıq simasına ciddi tələblər qoyulurdu və bunun milli memarlıq irsinə istinad olunması labüd idi.

Bu gün ölkəmiz müstəqildir. Azərbaycan xalqı firavan dövrünü yaşayır. Həyatımızın bütün sahələrində olduğu kimi, memarlıq və şəhərsalma sahəsinə böyük diqqət yetirilir. Şəhərlərimiz gözəlləşir, abadlaşır. İnsanlar üçün məişət, təhsil, elm, mədəniyyət, səhiyyə infrastrukturu yeni obyektlərlə zənginləşir. Bunlara dəstək verən dövlətdir, dövlətə rəhbərlik edən Prezident İlham Əliyevdir. Bunların gerçəkləşməsində əməyi olan memarlarımızdır.

Son 15 il müddətində Bakı dünyanın ən müasir, abad, gözəl şəhərlərindən birinə çevrilib. Şəhərimizə gələn qonaqlarımız, o cümlədən memarlar, burada qədim məhəllələrin müasir



memarlıq əsərləri ilə sintez yaratmasını xüsusi vurğulayırlar.

Memarlarımız ən qabaqcıl texnologiyalara arxalanaraq XXI əsrin memarlıq nümunələrini yaradırlar. Bununla bərabər, əsrlərdən bizə miras qalmış tarixi irsimizə xələl gətirməmək şərtilə, şəhərlərimizin memarlıq simasına müasir əsərlərin tətbiq edilməsi zəmanəmizin əsas tələblərindən biridir.

Bütün yuxarıda sadaladıqlarımın beynəlxalq peşə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilməsi bizi sevindirir.

Bu gün Azərbaycan memarlarını birləşdirən Memarlar İttifaqı dünya birliyində ən fəal, ən nüfuzlu təşkilatlardan biridir. Beynəlxalq Memarlar İttifaqının elə bir tədbiri, elə bir toplantısı olmur ki, orada nümayəndələrimiz iştirak etməsin və Azərbaycanın memarlıq sənətini təmsil etməsin. Bu yüksək münasibətlərin nəticəsidir ki, bu ilin iyun ayında Bakıda Beynəlxalq Memarlar İttifaqının Baş Assambleyası keçirildi və burada 120 ölkənin nümayəndəsi iştirak etdi. Assambleyadan öncə Bakıda Beynəlxalq Memarlar İttifaqının Azərbaycan Memarlar İttifaqı ilə birgə Birinci Beynəlxalq Forumu keçirildi. Forumun mövzusu tarixi şəhərdə yaşayan hər bir insan üçün böyük əhəmiyyət kəsb edən məsələyə toxundu - "Tarixi şəhərlərdə kütləvi turizm". Məqsəd, tarixi şəhərləri qorumaq və gələcək nəsillərə bəşər mədəniyyətini çatdırmaqdır.

Bunun davamı olaraq Bakıda YUNESKO-nun Tarixi İrs Komissiyasının sessiyası keçirildi və xalqımızın ən qədim mədəniyyət ocaqlarından olan Şəki şəhərinin Yuxarı Baş ərazisi YUNESKO-nun Dünya Əhəmiyyətli Abidələr siyahısına daxil edildi.

Məncə, Azərbaycan memarları qarşıdan gələn Beynəlxalq Memarlıq Gününü böyük nailiyyətlərlə və açıq alınla qarşılayır, xalqa, Vətənə, dövlətə, sənətlərinə ləyaqətlə xidmət edir və edəcəklər. Çünki bunun üçün ölkədə əmin-amanlıq şəraiti yaradan Azərbaycan Respublikasının rəhbəri vardır. Bu münasibəti doğrultmaq peşə və vətəndaşlıq borcumuzdur.

**Elbay QASIMZADƏ,**
**Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, respublikanın Əməkdar memarı, Beynəlxalq Memarlar İttifaqının Şura üzvü.**